# “Orxon-Yenisey” abidələrində türk etnos təfəkkürünün ifadəsi

**İlahə Rüstəmova**
E-mail: rustemova.ilahe99@gmail.com

**Annotasiya.** Türk xalqlarının monumental əsəri olan “Orxon-Yenisey” abidələri türk xalqlarının ortaq tarixini, dövlətçilik ənənələrini, digər xalqlarla münasibətini özündə ehtiva edir. Araşdırmamızda 19-cu əsrdə üzə çıxarılan “Bilgə xaqan” və “Gül Tigin” abidəsində qədim türklərin ictimai-siyasi problemlərini, türklərin xalq kimi formalaşması prosesinin hansı formada getdiyini, “Tonyukuk” abidəsində isə müdrik Tonyukukun vəzir kimi xalqın gələcəyi üçün verdiyi nəsihətlər öz əksini tapır. Bir çox alimlərin diqqətini cəlb edən, bu maraq sayəsində də araşdırma aparılan “Orxon-Yenisey” abidəsi, bizim araşdırmamızda qədim türklərin ortaq yazılı abidəsi kimi türk etnos təfəkkürünü ifadə etməsi baxımından tədqiqata cəlb edilmişdir.
**Açar sözlər:** Orxon, Yenisey, türk, etnos, abidə

**Məqalə tarixçəsi:** göndərilib – 11.09.2021; qəbul edilib – 23.09.2021

# Expression of the Turkish ethnos thinking in “Orkhon-Yenisei” monuments

**Ilaha Rustamova**
E-mail: rustemova.ilahe99@gmail.com

**Abstract.** “Orkhon-Yenisei” which is the monumental work of the Turkish nation reflects the common history, statehood traditions of the Turkish people and relations with other people. In our research based on the monuments “Bilga Khagan” and “Gul Tigin” that discovered in the 19th century are reflected the socio-political problems of the ancient Turks, the formation process of the Turks as a people. And in the “Tonyukuk” monument is given advice by the wise Tonyukuk as a vizier for the future of people. “Orkhon-Yenisei” monument that draws the attention of many scientists was involved to research as a common written monument in terms of expressing Turkish ethnos thinking in our work.
**Keywords**: Orkhon, Yenisei, Turkish, ethnos, monument

**Article history:** received – 11.09.2021; accepted − 23.09.2021

## Giriş / *Introduction*

Bəşər tarixində mövcud olan hər bir etnosun müəyyən tarixi köklərə malik olduğunu nəzərə alaraq, onların gələcəkdə bir xalq kimi varlığı uğrunda mübarizə aparması olduqca təbii haldır. Hər bir xalqın tarixi onun milli kimliyidir və bu tarix bir çox hallarda qədimlərə dayandığından bu haqda tam təsəvvürə malik olmaq mümkün olmamışdır və yaxud çox az qismini əldə edilən artefaktlar sayəsində bərpa etmək mümkün olmuşdur.

## Əsas hissə / *Main Part*

Türk etnosu dünya miqyasında öz qədim mədəniyyəti, ədəbiyyatı, tarixi cəhətdən fərqlənən nəhəng xalqlardan biri olduğu bəllidir. Türk etnosuna məxsus olan “Orxon-Yenisey” daş kitabələri onun qədimliyini, fəlsəfi təfəkkürünü göstərən ciddi tarixi abidədir. Daşlar üzərində yazılmış bu abidələrdə ilk dəfə türklərin adı çəkilmiş, onların tarixi haqqında ətraflı məlumat verilmişdir. Abidələrin

əlifbasının oxunması danimarka alimləri V.Tomsen və V.V Radlov tərəfindən həyata keçirilmişdir. Əvvəla, V.Tomsen 1893-cü ilin dekabr ayında Kül Tigin abidəsi üzərində olan tengri, türk, kül, tigin sözlərini Çin heroqlif məntlərindəki uyğun sözlərlə qarşılaşdırıb t, n, r, i, ü, k, l səslərini ifadə edən işarələri oxumuşdur. Abidələrin türkdilli mətn olduğu bilinəndən sonra isə digər mətnlər də aydınlaşdırılmışdır. Sonra V.V.Radlov 1894-cü ilin yanvarında Kül Tigin əlifbasını oxuyaraq tərcümə etmişdir.

"Orxon-Yenisey" abidələri qədim türklərin ilkin inancları, dövlətçilik ənənələri, habelə ümumilikdə tarixi-bədii salnaməsi cəhətdən çox əhəmiyyətlidir. Abidələr türk xaqanlarının qəhrəmanlıqları şərəfinə yazılmışdır. Bu abidələr arasında ən az öyrənilənі "Ongin" abidəsidir. Abidədəki yazıları oxuyarkən türklərin ümumi təfəkkürü haqda ilkin anlayışımız yaranır. "Hücum edib kiçik qardaşıma, oğluma eləcə nəsihət verdim; Tanrı müdrik xaqandan ayrılmayaq, (ona qarşı) səhv etməyək, - deyə eləcə nəsihət verdim" [1, s.272]. Burada xalq tərəfindən xaqana qarşı yanılmamaq, onun ətrafında yumruq kimi birləşmək ictimai hadisə kimi dəyərləndirilir. Millətin təşkilində məhz xaqanın yanında olmağın əhəmiyyətini bu sözlərdən duya bilirik.

Abidə mətnlərindən aydın olur ki, türklərin xalq kimi tarixdə qalması üçün İltəris xaqanın, Bilgə xaqanın, qardaşı Kül Tiginin xüsusi rolu olmuşdur. Abidələrdə gördüyümüz yalançı, biliksiz başçının dövləti məhvə sürükləməsi, müdrik xaqanların isə dövləti yenidən qurmaq cəhdi, onların bütün türk xalqlarına müraciəti, verdiyi nəsihətlər hər zaman aktuallığını saxlamış və örnək mənbəyi olmuşdur. Məhz "Kül Tigin" abidəsində Bilgə xaqanın dilindən deyilmiş "Türk oğuz bəyləri, xalq eşidin: üstdən tanrı basmasa, altdan yer dəlinməsə, türk xalqı, elini (dövlətini) qanununu kim dağıtmağı bacarası idi?" [1, s.302] bu ifadə ilə Bilgə xaqan türkləri dünyada güclü dövlət kimi təqdim etmiş, onların yalnız dünya dağılarsa, yox olacağını bildirmişdir. Bu, təkcə Bilgə xaqanın şəxsi ifadəsi deyildi, bütün türklər özlərinin güclü, döyüşkən olduğunu hesab edirdilər. Lev Qumilyev qədim türklər tədqiqatında yazır: "türk" sözünün mənası "güclü", "möhkəm" deməkdir. Çox güman ki, bu anlayış müəyyən zaman müddətində artıq türk xalqlarının milli mənsubiyyətinə çevrilmişdi. Eyni zamanda, türklərin ilkin inanclarında öz məğlubedilməzliyini qurda bənzədiklərində görürdülər. Qurda bənzətmə, qurd kimi güclü olaraq döyüşmək artıq elə bir qəlibləşmiş düşüncə idi ki, "Bilgə xaqan" abidəsində insanın yaranmasına dair mifoloji təsəvvürlərin izləri vardır: "Yuxarıda mavi göylər, aşağıda qonur yer yarandıqda ikisinin arasında insan oğlu yaranmış. İnsanoğlu üzərində əcdadlarım Bumın xaqan, İstəmi xaqan oturmuş" [1, s.341], – deyərək öz əcdadlarının qədimliyindən bəhs etmiş, onları türk elinin qurucusu hesab etmişdir.

Biz "Bilgə xaqan" abidəsində Bilgə xaqanın hakimiyyətə gəlməsini, güclü dövlət qurma prosesini, dövründə baş verən bütün ictimai-sosial hadisələri izləyə bilirik. Bilgə xaqan hakimiyyətə gələn zaman xaqanlıq dağılmaq ərəfəsində idi. Xaqanlığın hərbi qüdrəti zəiflədiyindən, onun tərkibində olan qəbilələrin üsyanına səbəb olur.

Türkün gücü Çini qorxutduğu üçün onlar yalnız türklərin arasında nifaq salaraq onları məğlub etmək istəyir. Kül Tiginin dövlət üçün etdiyi bütün səylərə baxmayaraq, yenə də onaqarşı olan türklər (qırğız, türgiş) olur ki, Kül Tigin onlara qarşı mübarizə aparır. Abidədə yazılır: "Türgiş xaqanı turkümüz, xalqımız idi. Bilmədiyi (başa düşmədiyi) üçün bizə qarşı yanıldığı, xəyanət etdiyi üçün xalqı öldü, əyanları (buyuruqları) bəyləri də öldü. On ox xalqı əziyyət gördü" [1, s.302]. Bu hadisələr nəticəsində Tabğaçların qızışdırdıqları bəylər bir-biriylə ayrılmışlar, qanunla qurulan dövlətdə çəkişmələr olmuşdur. Bilgə xaqan bunlardan bəhs edərkən təəssüf hissi keçirir. Dövlətin güclü inkişafında və ya zəifləməsində xalqın böyük əhəmiyyəti vurğulanır. Tabğaç xalqına inanıb yanılmaqları, yemək üçün nökərçilik etmələri türklər üçün ləyaqətsizlik kimi qiymətləndirilir: "Silahlılar hardan gəlib səni dağıtdılar? Süngülülər, mizraqlılar haradan gəlib diyar-diyar səpələndi? Müqəddəs Ötükən məşəsinin milləti, özün getdin. İrəli şərqə gedənləriniz ora getdi. Geri – qərbə gedənləriniz ora getdi. Bəs getdiyiniz yerdə xeyirin nə oldu? Bunu gördün: qanın su kimi axdı, sümüyün dağ kimi qalandı" [1, s.302]. Türklərin etdiyi səhvlər vurğulanaraq gələcək nəsli bu səhvlərdən ibrət götürülməsinə çağırılır, əgər xalqla dövlətin mənafeyi birlikdə olarsa, tanrı onların bəxtinə hər zaman yar olar. Halbuki Bilgə xaqanın vəziri olmuş Tonyukuk türklərin daha geniş ərazilərdə məskən salaraq onların bir etnos kimi varlığını qoruyub saxlaya biləcəyini deyirdi.

Abidələrdə tez- tez "Tanrı yar olduğu üçün", yaxud "Tanrı yar olmadığı" üçün ifadəsinin işləndiyini görürük. Türklər qazandıqları döyüşlərin, ümumiyyətlə, bütün uğurun Tanrıdan gəldiyinə inanırdılar. Türk xalqlarından kimsə yolunu azdıqda, öz xalqını qoyub qaçdıqda, onun ləyaqətini tapdalayanda sanki Tanrının onlara acığı tutur, onları bəlaya düçar edir. Lakin onlar Tanrının rəğbətini qazansa, Tanrı onlara layiqli hökmdar göndərər.

"Kül Tigin" abidəsi həm hərbi səfərlərlə bağlı, həm də dövlət quruculuğu baxımından əhəmiyyətli abidədir. Kül Tigin və Bilgə xaqan hakimiyyəti illərində ədalətli dövlət qurmaq üçün çalışırlar. "Türk xalqı üçün gecə uyumadım (yatmadım) gündüz oturmadım, (istirahət etmədim) kiçik qardaşım Kül Tigin ilə, iki şad ilə əldən düşüncəyədək (ölərək, yetərək) qazandım. Vahid xalqı od və su eləmədim" [1, s.303]. Burada od və su xalq kimi təsvir olunur. Od və su bir-birinə əks qüvvələrdir və birbirini yox edir. Bilgə Xaqanın da bu ifadə ilə xalqı parçalamadığını, birlik yaratdığını görürük.

Kül Tiginin hərbi səfərlərindən bəhs olunarkən onun təkcə sərkərdə kimi deyil, sıravi insan kimi xalq tərəfindən sevildiyini görürük. Bilgə xaqan onun ölümünü təsvir edərkən daxili sarsıntısını ifadə edir: Görür gözüm görməz tək, bilər biliyim bilmək tək oldu, özüm düşündüm. Baxtı tanrı yazar, insanoğlu hamısı ölümlü törəmiş" [1, s.305].

Göytürk dövlətinin möhkəmlənməsi, qayda-qanunlu dövlətin yaranmasında xaqan, sərkərdə kimi amillərlə yanaşı, xaqanın məsləhətçisi kimi vəzirin də rolu danılmazdır ki, biz qədim abidədə İltəris, Kapağan, Bilgə xaqanın vəziri olmuş Tonyukuk haqda məlumat alırıq. Tonyukukun şərəfinə yazılmış abidə 1897-ci ildə Y.N.Klements kəşf etmişdir. Abidənin 1898-ci ildə estampajı və foto-surəti çıxarılmışdır və bunların əsasında abidəni ilk dəfə Vilhelm oxuyub tərcümə və nəşr etdirmişdir.

Türklərin ən qədim bilinən yazılı abidəsi "Orxon-Yenisey" abidələri olduğuna görə, Tonyukuk da ilk müdrik vəzir kimi abidədə yer almışdır. Bəs vəzir necə olmalıdır? Hansı keyfiyyətləri özündə birləşdirməlidir? Vəzirliyə necə adam seçilməlidir? Biz bu suallara cavabı 11-ci əsr möhtəşəm türk əsəri "Qutadqu-bilik" əsərində görürük. Öydülmüş Elikə vəzirlik edə biləcək adamın xüsusiyyətlərini bəyan edərək vəzirin bir dövlətin idarə olunmasındakı əhəmiyyəti vurğulanır: "Vəzir bəylərə uzanmış əl deməkdir, vəzir imanlı və tər-təmiz olmalı, el və xalq ondan əmin olmalıdır, vəzir abırlı, gözütox və bütöv olmalıdır, hesab bilən, alim və müdrik olmalıdır" [2, s.166]. Məhz bu keyfiyyətlər sayəsində Elikin qurduğu dövlət firavan olur, qayda-qanunla yaşayır. "Tonyukuk" abidəsi və "Qutadqu-bilik" əsərinin yazılması arasında 3 əsr fərq olmasına baxmayaraq, vəzirliyə aid bütün simaların Tonyukukda vəhdət halında olduğunu görürük. Hətta Tonyukuk bu keyfiyyətlərdən daha üstün cəhətlərə malik idi, Tonyukuk təkcə əqli cəhətdən güclü deyildi, o həm də sərkərdə idi. Kitabədə yazılır ki, Tonyukuk İltəris xaqan və Kapağan xaqan üçün qızıl qanını tökür, hərbi yürüşlər edir, düşmənini məğlub edir, onun sayəsində dövlət dövlət olur, millət millət olur. Hətta Tonyukuk öz dövrünün elə bir ulu şəxsiyyəti olur ki, xaqanını belə özü seçir və bu da Tonyukukun sözünün bütün xalq sözündən yüksəkdə durduğunun əlaməti idi.

"Tonyukuk" abidəsi Tonyukukun məhz özü tərəfindən yazdırılmışdır. Uşaqlıq və gənclik illərini Tabğaçda keçirən Tonyukuk əsarətdə yaşayan xalqın nümayəndəsi kimi həmişə daxili sarsıntılar, mənəvi əzab keçirir. Məhz bu illər ərzində onda azadlıq uğrunda mübarizə hissi dərin kök saldığından, müstəqil türk dövləti uğrunda döyüşür. Uzun illər ərzində türklərin əsarət altında qalmasına baxmayaraq, onların milli azadlıq ideyaları nəticəsiz qalmır.

İltəris xaqanın və Tonyukukun başçılığı ilə ağıl və qüvvət sayəsində Göytürk dövlətinin gələcək firavan həyatının əsası qoyulur.

## Nəticə / *Conclusion*

"Orxon-Yenisey" abidələri türklərin ədəbi-tarixi abidəsi olmaqla yanaşı, türk xalqlarının milli oyanışı və dirçəlişi də böyük əhəmiyyət kəsb etmişdir. "Orxon-Yenisey" abidələri türk etnos təfəkkürünün hansı miqyasda formalaşdığını sübut edən və böyük tarixi əhəmiyyəti olan abidədir.

**Ədəbiyyat / *References***

1. Əbülfəz Rəcəbli. Qədim türk yazısı abidələri. 4 cilddə, I cild. Göytürk abidələri. 1-ci hissə. Bakı: Nurlan, 2009.
2. Yusif Balasaqunlu. Qutadğu bilik. Bakı: Azərnəşr, 1994.

## Воплощение тюркского этнического мышления в Орхон-Енисейских памятниках

**Илаха Рустамова**
E-mail: rustemova.ilahe99@gmail.com

**Резюме.** Являющийся монументальным произведением тюркских народов Орхон-Енисейский памятник демонстрирует общую историю, традиции государственности и отношение к другим народам. В результате иследований скульптур “Билге-Хаган” и “Гул Тигин” были выявлены общественно политические проблемы, как формировались тюрки как народ в 19 веке, а скульптура “Тонюкук” демонстрирует какие советы давал мудрый везир Тонюкук своему народу для будущего развития. Для изучения истории тюркского этноса Орхон-Енисейский памятник был привлечён в качестве исторического образца.
**Ключевые слова:** Орхон, Енисей, турецкий, этнос, памятник